# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 330** **QƏRAR** **Bakı şəhəri, 14 oktyabr 2015-ci il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 may tarixli 81 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"da dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 667 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 13.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 20 may tarixli 81 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 453; 2014, № 6, maddə 747) ilə təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"ın "4. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1.4.1-ci bəndə aşağıdakı məzmunda 4.1.7-ci və 4.1.8-ci yarımbəndlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4.1.7. | İnsan alverinə məruz qalmaq ehtimalı olan əməkçi miqrantların sosial müdafiə tədbirləri ilə əhatə olunma imkanlarının asanlaşdırılması və genişləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti | mütəmadi |
| 4.1.8. | Qanunsuz miqrantlar arasında insan alveri qurbanlarının aşkarlanması prosesinin təkmilləşdirilməsi məqsədi ilə miqrasiya, sərhəd, gömrük orqanları tərəfindən əməkdaşları üçün insan alverinə qarşı mübarizəyə və qurbanların hüquqlarına dair təlimlərin keçirilməsi | Dövlət Miqrasiya Xidməti, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi | mütəmadi |

2. 4.1.2-ci yarımbənddə "2011-2013" rəqəmləri və 4.2.3-cü yarımbənddə "2011-2012" rəqəmləri "2015-2018" rəqəmləri ilə, 4.1.4-cü yarımbənddə "2011-2012" rəqəmləri "2016" rəqəmi ilə, 4.1.5-ci yarımbənddə "2011" rəqəmi "2016-2017" rəqəmləri ilə, 4.1.4-cü yarımbənddə isə "İcraçı orqanlar" sütununda "İnformasiya Texnologiyaları" sözləri "Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin.

3. 4.1.6-cı yarımbəndə "problemlərin" sözündən sonra "müəyyən edilməsi və" sözləri əlavə edilsin.

4. 4.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4.2.2. | İnsan alverinə şərait yaradan sosial problemlərin təhlil edilməsi və aradan qaldırılmasına dair təkliflərin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2015-2018 |

5. 4.2.4-cü yarımbəndə "verilməsi" sözündən sonra ", günərzi qayğı mərkəzlərinə" sözləri əlavə edilsin.

6. 4.2.6-cı yarımbəndə "üçün" sözündən sonra "qabaqcıl beynəlxalq təcrübəyə əsasən" sözləri əlavə edilsin.

7. 4.3.1-ci yarımbəndə "istəyən" sözündən sonra ", eləcə də ilk dəfə işaxtaran" sözləri əlavə edilsin və həmin yarımbənddə "2011-2013" rəqəmləri "2015-2018" rəqəmləri ilə əvəz edilsin.

8. 4.4.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4.4.5. | Əmək miqrasiyası sahəsində Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlmələrində vasitəçilik fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış hüquqi şəxslərin siyahısının dərc edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti | mütəmadi |

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***